**HƏSƏNOV HƏSRƏT ƏLİ OĞLU**
**(1930-2009)**
**Dilçi**

02 may 1930-cu ildə anadan olmuşdur. 1949-1954-cü illərdə BDU-nun Filologiya fakültəsində təhsil almışdır. 1964-cü ildə namizədlik, 1980-ci ildə doktorluq dissertasiyası müdafiə etmiş, professor elmi adı almışdır. 1965-ci ildən universitetin Ümumi dilçilik kafedrasında müəllim, baş müəllim (1967), Azərbaycan dilçiliyi kafedrasında dosent (1970-1980), 1980-ci ildən professor vəzifələrində çalışmışdır.

Elmi yaradıcılığı, əsasən, Azərbaycan dilinin leksikalogiyasının tədqiqi, leksikoqrafiya və nitq mədəniyyətinin problemlərinə həsr olunmuşdur. Bununla yanaşı, tədqiqatçının yaradıcılığında ümumi dilçilik məsələlərinə də toxunulmuşdur.

“Azərbaycan şəxs adları lüğəti”, “Azərbaycan şəxs adlarının izahlı-etimoloji lüğəti”, “Azərbaycan dilinin sinonimlər lüğəti” (İ.Məmmədovla birlikdə), “Dilin ictimai mahiyyəti”, “Yazılar və əlifbalar”, “İnterlinqvistika” və “Natiqlik sənəti”, adlı əsərlərin müəllifidir.

Azərbaycan dilinin müxtəlif sahələrinə aid 26 kitabı və 130-dan çox elmi məqaləsi nəşr edilmişdir.